https://doi.org/10.36719/2663-4619/108/67-70

**Sevda Tağıyeva**
Azərbaycan Dillər Universiteti
sevdatagiyeva804@gmail.com
https://orcid.org/0001-0011-7187-9412

# COP29-da Azərbaycanın ekoloji və iqtisadi hədəfləri

**Xülasə**

Məqalədə Azərbaycanın COP29 sammitində təyin etdiyi ekoloji və iqtisadi hədəflər geniş təhlil edilib. Azərbaycan iqlim dəyişikliyinə qarşı qlobal səylərə qatılaraq davamlı iqtisadi inkişaf və ətraf mühitin qorunması arasında tarazlığı təmin etməyi hədəfləyir.

Ekoloji hədəflərin başında gələn karbon emissiyalarının azaldılması ilə Azərbaycan qlobal istiləşməni yavaşlatmaq istiqamətində Paris Sazişi çərçivəsində üzərinə götürdüyü öhdəlikləri icra edir. Bu məqsədə çatmaq üçün günəş, külək və su enerjisi kimi təmiz enerji mənbələrindən istifadənin genişləndirilməsi planlaşdırılır. Xüsusilə Xəzər dənizində külək enerjisi potensialının inkişafı ilə bağlı konkret planlar, Azərbaycanın öz enerji ehtiyaclarının əhəmiyyətli bir hissəsini daha ekoloji cəhətdən təmiz metodlarla təmin etməyi hədəflədiyini göstərir.

COP29 çərçivəsində Azərbaycanın regional və qlobal əməkdaşlıq istiqamətində də mühüm addımlar atdığı vurğulanır. Xəzər dənizinin ekoloji vəziyyətinin qorunması və bərpası üzrə digər dövlətlərlə birgə layihələr həyata keçirilməsi Azərbaycanın regionda ekoloji problemlərin həllinə yönəlmiş öhdəliklərini daha da gücləndirir. Bundan başqa, ölkə qlobal iqlim təşəbbüslərinə qatılaraq həm beynəlxalq səviyyədə ekoloji məsuliyyətlərini artırır, həm də qlobal ekosistemlərdə dəyişikliklərin ölkə daxilindəki təbii mühitə təsirini minimuma endirməyə çalışır.

Nəticə olaraq, Azərbaycanın COP29-da müəyyən etdiyi ekoloji və iqtisadi hədəflər yalnız daxili inkişafı dəstəkləmir, eyni zamanda qlobal iqlim siyasətində fəal iştirakçılığını artırır. Bu yanaşma Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə qlobal tərəfdaş kimi rolunu daha da gücləndirir, davamlı inkişaf prinsiplərinə uyğun olaraq gələcək nəsillərə daha sağlam və dayanıqlı bir mühitin təmin olunmasına xidmət edir.

***Açar sözlər:*** *COP29, Azərbaycan, ekoloji hədəflər, iqtisadi hədəflər, regional əməkdaşlıq, davamlı inkişaf*

**Sevda Taghiyeva**
Azerbaijan University of Languages
sevdatagiyeva804@gmail.com
https://orcid.org/0001-0011-7187-9412

# Environmental and Economic Goals of Azerbaijan at COP29

**Abstract**

In this article, the environmental and economic goals set by Azerbaijan at the COP29 summit were extensively analyzed. Azerbaijan aims to ensure a balance between sustainable economic development and environmental protection by joining global efforts against climate change.

By reducing carbon emissions, which is at the top of the environmental goals, Azerbaijan fulfills its obligations under the Paris Agreement to slow down global warming. To achieve this goal, it is planned to expand the use of clean energy sources such as solar, wind and hydropower. Concrete plans for the development of wind energy potential, especially in the Caspian Sea, show that Azerbaijan aims to meet a significant part of its energy needs with more environmentally friendly methods.

It is emphasized that within the framework of COP29, Azerbaijan has taken important steps in the direction of regional and global cooperation. The implementation of joint projects with other

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

states on the protection and restoration of the ecological condition of the Caspian Sea further strengthens Azerbaijan's obligations aimed at solving environmental problems in the region. In addition, the country increases its environmental responsibility at the international level by participating in global climate initiatives, and tries to minimize the impact of changes in global ecosystems on the natural environment within the country.

As a result, the environmental and economic goals set by Azerbaijan at COP29 not only support domestic development, but also increase its active participation in global climate policy. This approach further strengthens the role of Azerbaijan as a global partner in the fight against climate change, serves to ensure a healthier and more sustainable environment for future generations in accordance with the principles of sustainable development.

***Keywords:*** *COP29, Azerbaijan, environmental goals, economic goals, regional cooperation, sustainable development*

## Giriş

Azərbaycanın COP29 sammitində iştirakı qlobal iqlim dəyişikliyinə qarşı mübarizədə ölkənin üzərinə götürdüyü məsuliyyətin göstəricisidir. Dünyada artan iqlim dəyişiklikləri problemi, ətraf mühitin deqradasiyası, təbii sərvətlərin tükənməsi kimi məsələlər ölkələri daha davamlı və yaşıl iqtisadi sistemlər qurmağa vadar edir. Bu çərçivədə Azərbaycan da ekoloji problemlərə həll yolları tapmağa və iqtisadiyyatını yaşıl transformasiya ilə gücləndirməyə dair ciddi təşəbbüslər göstərir.

Azərbaycanın COP29 iştirakının arxasında dayanan əsas məqsədlərdən biri milli iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf hədəflərinə nail olmaqdır. Neft-qaz sektorunun ölkə iqtisadiyyatında uzun illərdir aparıcı rol oynadığı məlumdur. Lakin qlobal enerji sektorunda yaşanan dəyişikliklər və ekoloji tələblərin artması nəticəsində Azərbaycan iqtisadiyyatında bərpa olunan enerji mənbələrinin və yaşıl texnologiyaların əhəmiyyətini artırmaqdadır. Azərbaycanın COP29 sammitində ekoloji və iqtisadi hədəflərinin uzlaşdırılması, onun beynəlxalq iqlim öhdəliklərini daha effektiv şəkildə həyata keçirməsinə dəstək olmaqla yanaşı, ölkənin qlobal iqlim siyasətində mövqeyini gücləndirir. Bu məqsədlər arasında karbon emissiyalarını azaltmaq, bərpa olunan enerji mənbələrinə keçid, iqtisadiyyatın şaxələndirilməsi və yaşıl texnologiyaların tətbiqi əsas rol oynayır. Ümumilikdə, COP29 Azərbaycan üçün qlobal səviyyədə yaşıl transformasiya hədəflərinə nail olmaq və dayanıqlı inkişaf yolunda irəliləmək üçün mühüm bir mərhələni təşkil edir.

## Tədqiqat

Azərbaycan COP29 çərçivəsində karbon emissiyalarını azaltmaq üçün konkret hədəflər qoymuşdur. Ölkə, 2030-cu ilə qədər karbon emissiyalarını 40 %-ə qədər azaltmaq üçün bərpa olunan enerji texnologiyalarını inkişaf etdirməyi və enerji israfını minimuma endirməyi planlaşdırır (Ağazadə, 2024, s. 7).

Bu addımlar ölkənin beynəlxalq öhdəliklərini yerinə yetirməsinə kömək edəcək. Ölkənin günəş və külək enerjisindən daha geniş istifadə etməsi planlaşdırılır, xüsusən Xəzər dənizi hövzəsində külək enerjisinin potensialı yüksək qiymətləndirilir (COP29: Azerbaijan supports global peace, 2024)

Bu hədəflərə nail olmaq üçün Azərbaycanın ekoloji proqramları və enerji islahatları müxtəlif sahələri əhatə edir. Bunlara təmiz enerji layihələrinin genişləndirilməsi, karbon bazarı platformaları ilə əməkdaşlıq və enerji səmərəliliyini artırmaq üçün innovativ texnologiyaların tətbiqi daxildir (İskəndərov, 2024, s. 6).

Ölkə həmçinin iqlimə təsir edən emissiyaların izlənilməsi və idarə edilməsi üçün qabaqcıl texnologiyalardan istifadə etməyi nəzərdə tutur. Azərbaycanın ətraf mühitlə bağlı bu hədəfləri dayanıqlı gələcəyin qurulması istiqamətində qlobal tərəfdaşlarla birlikdə işləmək istəyi ilə uyğun gəlir (Eldarqızı, 2024, s. 1).

Azərbaycanın neft-qaz sektoruna uzun müddət asılı olması iqtisadiyyatın digər sahələrində inkişafın zəif olmasına səbəb olmuşdur. COP29-da təqdim olunan hədəflərdən biri isə ölkənin iqtisadiyyatını şaxələndirmək, yaşıl texnologiyalara keçid etmək və qeyri-neft sektorunun payını artırmaqdır. Yaşıl iqtisadiyyata keçid, kənd təsərrüfatı və sənaye sektorlarında enerji səmərəliliyinin artırılması, eləcə də turizm və texnologiya sektorlarının inkişaf etdirilməsi istiqamətində addımların atılmasını nəzərdə tutur (Qasımlı və b., 2022, s. 96).

Bu iqtisadi islahatlar ölkədə iş imkanlarının artırılması və əhalinin rifahının yaxşılaşdırılmasına da töhfə verəcək. Yaşıl texnologiyaların tətbiqi isə xüsusilə kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunması sahələrində əhəmiyyətli təsirə malikdir. Bununla yanaşı, yaşıl texnologiyaların tətbiqi nəticəsində xarici sərmayələrin ölkəyə cəlb edilməsi də asanlaşır, bu da iqtisadiyyatın inkişafında mühüm rola malikdir (Hümbətova, 2024, s. 12).

Azərbaycan COP29 çərçivəsində regional və beynəlxalq əməkdaşlıq məsələlərini də diqqətdə saxlayır. Xüsusən, Xəzər dənizi regionunda olan ekoloji problemlərə, su ehtiyatlarının və biomüxtəlifliyin qorunmasına xüsusi önəm verilir. Azərbaycanın Xəzər dənizi ətrafında fəaliyyət göstərən digər ölkələrlə əməkdaşlığı gücləndirmək məqsədi ilə birgə ekoloji proqramların həyata keçirilməsi planlaşdırılır (Sarıyeva, 2024, s. 8).

Bu proqramlar çərçivəsində ekoloji problemlərin həlli və su ehtiyatlarının qorunması üzrə regional səviyyədə tədbirlər görüləcəkdir (COP29 in Azerbaijan to be a "Truce COP", 2024).

Bundan əlavə, Azərbaycan beynəlxalq səviyyədə ekoloji layihələrdə fəal iştirak edir. Məsələn, ölkə Paris Sazişi çərçivəsində qlobal istiləşmənin 1.5°C-də saxlanılması məqsədini dəstəkləyir və COP29 vasitəsilə bu məqsədə uyğun olaraq yeni layihələr təklif edir (COP 29 – UN Azərbaycan üçün siyasi, iqtisadi və ekoloji əhəmiyyəti, 2024).

Azərbaycanın qlobal ekoloji gündəlikdə fəal iştirakı, həm də ölkənin beynəlxalq iqlim siyasətindəki mövqeyini gücləndirir və dayanıqlı inkişaf hədəflərinə nail olmağa imkan yaradır. Belə ki, iqtisadi cəhətdən yaşıl iqtisadiyyata keçid Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Bu, yalnız iqtisadiyyatın şaxələndirilməsini deyil, həm də neft və qaz asılılığını azaltmağı nəzərdə tutur. Enerji effektivliyinin artırılması və yeni texnologiyaların tətbiqi ilə sənaye sahələrində israfın qarşısı alınaraq, ətraf mühitə təsirlər minimuma endirilir. Məsələn, kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi, həm məhsuldarlığı artırır, həm də təbii resursların daha qənaətli istifadə olunmasına şərait yaradır (Azərbaycanın "yaşıl" enerjiyə keçidlə bağlı təşəbbüsləri, 2023).

Azərbaycanın iqtisadi və ekoloji hədəfləri bir-birini tamamlayıcı xüsusiyyətə malikdir. Ekoloji islahatların iqtisadi inkişafa müsbət təsir göstərməsi gözlənilir. Məsələn, karbon emissiyalarının azaldılması və enerji səmərəliliyinin artırılması nəticəsində enerji xərcləri azala bilər ki, bu da iqtisadi inkişafı sürətləndirir. Bərpa olunan enerji mənbələrinə keçid isə həm ölkənin enerji asılılığını azaldır, həm də ekoloji riskləri minimuma endirir (Eminov, Məhərrəmova, 2021, s. 20).

Davamlı inkişafın təmin edilməsi üçün Azərbaycanın COP29-da qoyduğu hədəflər ölkənin iqtisadi və ekoloji inkişafının harmonik şəkildə irəliləməsini təmin edəcək. Bu, ölkənin ekoloji diplomatiyasında da mühüm rol oynayır. Azərbaycan, həm daxili iqtisadiyyatını inkişaf etdirmək, həm də ekoloji problemlərə diqqət yetirmək vasitəsilə qlobal səviyyədə dayanıqlı inkişaf hədəflərinə dəstək verir (Abbaszadə, 2023, s. 26).

## Nəticə

Azərbaycanın COP29 sammitində müəyyən etdiyi ekoloji və iqtisadi hədəflər, ölkənin qlobal iqlim dəyişikliyi ilə mübarizədə mövqeyini gücləndirmək və milli inkişafını davamlı əsaslarla qurmaq məqsədini əks etdirir.

Bu hədəflər ölkənin yalnız ekoloji öhdəlikləri yerinə yetirməsini təmin etmir, eyni zamanda iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf üçün yeni perspektivlər açır. Karbon emissiyalarının azaldılması, bərpa olunan enerji mənbələrinin artırılması və yaşıl texnologiyaların tətbiqi Azərbaycan iqtisadiyyatının enerji asılılığını azaltmaqla yanaşı, ekoloji təsirləri minimuma endirmək istiqamətində əhəmiyyətli addımlar sayılır.

COP29 çərçivəsində ölkənin beynəlxalq əməkdaşlıq imkanları da genişlənmişdir. Xəzər dənizi hövzəsinin ekosistemi, su ehtiyatlarının qorunması və regional səviyyədə ekoloji problemlərin həlli istiqamətində Azərbaycan birgə tədbirlər həyata keçirməyə sadiqdir. Qlobal səviyyədə iqlim dəyişikliyinə qarşı mübarizəyə öz töhfəsini verməklə Azərbaycan, həm də Paris Sazişi kimi beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün əhəmiyyətli bir platforma əldə edir.

Azərbaycanın ekoloji və iqtisadi hədəflərinin uzlaşdırılması, həm milli iqtisadiyyatın uzunmüddətli davamlı inkişafını təmin edir, həm də gələcək nəsillərə daha sağlam və yaşıl mühit buraxmağa şərait yaradır. Davamlı inkişaf prinsiplərinə sadiq qalaraq Azərbaycan, regionda ekoloji məsuliyyət

və dayanıqlı iqtisadiyyatın inkişaf etdirilməsində nümunəvi rol oynamağa hazırdır. Bu yanaşma, ölkənin dayanıqlı və yaşıl iqtisadiyyat yolunda qlobal səviyyədə müsbət təsir göstərməyə yönəlmiş məqsədlərini əks etdirir.

## Ədəbiyyat

1. Abbaszadə, F. (2023). Yaşıl iqtisadiyyat perspektivləri: struktur yanaşmaların və iskal siyasətin təhlili. *"İqtisadi islahatlar" elmi-analitik jurnal*, 3(8), 26-32.
2. Eminov, F. B., Məhərrəmova, X. C. (2021). *Ekoloji fəaliyyətin idarəolunması* (dərs vəsaiti). Elm və təhsil.
3. Hümbətova, S. R. (2024). *Yaşıl iqtisadiyyatin modelləşdirilməsi* (Azərbaycan timsalında). İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı.
4. Qasımlı, V. Ə., Hüseyn, R. Z., Hüseynov, R. F., Həsənov, R. B., Cəfərov, C. R., Bayramova, A. B. (2022). *Yaşıl iqtisadiyyat*. "Azprint" nəşriyyatı.
5. Sarıyeva, İ. (2024, 25 oktyabr). COP29 azərbaycançılıq ideyasının mühüm nümayiş arenasına çevriləcək... *Bakı Xəbər*, 194, 8.
6. Ağazadə, S. (2024, 23 oktyabr). COP29-un əhəmiyyəti nədən ibarətdir? *Səs*, 195, 7.
7. İskəndərov, B. (2024, 17 yanvar). COP-29-un Azərbaycanda keçirilməsi müstəsna əhəmiyyət daşıyır. *525-ci qəzet*, 8, 6.
8. Eldarqızı, N. (2024, 21 fevral). Qlobal iqlim dəyişmələri ilə mübarizədə Azərbaycan modeli. *Respublika,* 39, 1-8.
9. COP29: Azerbaijan supports global peace. (2024, 1 october). https://aze.media/cop29-azerbaijan-supports-global-peace/
10. Azərbaycanın "yaşıl" enerjiyə keçidlə bağlı təşəbbüsləri. (2023, 20 sentyabr). https://cop29.az/az/sustainability/energy-transition-initiatives
11. COP 29 – UN Azərbaycan üçün siyasi, iqtisadi və ekoloji əhəmiyyəti. (2024, 20 sentyabr). https://mdu.edu.az/cop-29_az%C9%99rbaycan/
12. COP29 in Azerbaijan to be a "Truce COP". (2024, July 11). https://unric.org/en/unbt-cop29-azerbaijan-ambitions-a-truce-cop-in-november/

Daxil oldu: 10.09.2024
Baxışa göndərildi: 27.09.2024
Təsdiq edildi: 06.10.2024
Çap olundu: 20.11.2024